22140509

International Baccalaureate®
Baccalauréat International
Bachillerato Internacional

**AZERBAIJANI A: LITERATURE – HIGHER LEVEL – PAPER 1**
**AZERBAÏDJANAIS A : LITTÉRATURE – NIVEAU SUPÉRIEUR – ÉPREUVE 1**
**AZERÍ A: LITERATURA – NIVEL SUPERIOR – PRUEBA 1**

Friday 9 May 2014 (morning)
Vendredi 9 mai 2014 (matin)
Viernes 9 de mayo de 2014 (mañana)

2 hours / 2 heures / 2 horas

INSTRUCTIONS TO CANDIDATES

- Do not open this examination paper until instructed to do so.
- Write a literary commentary on one passage only.
- The maximum mark for this examination paper is *[20 marks]*.

INSTRUCTIONS DESTINÉES AUX CANDIDATS

- N'ouvrez pas cette épreuve avant d'y être autorisé(e).
- Rédigez un commentaire littéraire sur un seul des passages.
- Le nombre maximum de points pour cette épreuve d'examen est *[20 points]*.

INSTRUCCIONES PARA LOS ALUMNOS

- No abra esta prueba hasta que se lo autoricen.
- Escriba un comentario literario sobre un solo pasaje.
- La puntuación máxima para esta prueba de examen es *[20 puntos]*.


© International Baccalaureate Organization 2014

*Ardıcıl mövzulardan* ***birini*** *şərh edin:*

**1.**

Sultan Süleyman Qanuni deyil, indi ustadın qarşısında şair Mühibbi əyləşmişdi. Demək olar ki, həmsənət idilər. Hər ikisi də demək olar ki, Sultan idi. Mühibbi düşünürdü.: Bəli sən şiə padşahın sarayını qəbul ələmədin […]. Hər ikisinə qəsidələr, məsnəvilər ithaf etdin; amma saray həyatını, saray mühitini qəbul etmədin. Çünki sən elə özün padşahsan, sultansan, eşq sultanı, şəriyyət padşahısan. Yaxşı demisən:

Padşahi-mülk, dinarü dirəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşgəri.

Sənə ölkələr, ürəklər fəth etmək üçün ləşkər lazım deyil. Sənin ləşkərin sənin qəzəllərindi, dünyanı fəth edir, dünyanı, ürəklərə hakim kəsilir. Sənin kimi xoşbəxt padşah olmaq ancaq adı padşah olmaqdan, sultan olmaqdan daha yaxşıdır. Ustad isə deyirdi:

— Sultanım, təbəə hökmdarın oğlu, övladı yerindədir. Ona həqiqi mənada əsl oğul gözü ilə baxmaq lazımdır.

Ey xacə, gər gulundan oğulluq murad isə,
Şəfqət gözüylə bax ona daim oğul kimi.
Vər oğlunu dilərsən ola sahib-ədəb,
Əlbəttə eylə zillətə mötad qul kimi.

— Bəzi hökmdarlar, şahlar, sultanlar fəth etdiyi məmləkəti qarət etmək üçün imkan yaratmırlar, qarətə izin vermirlər və yaşı da edirlər. Çünki mal-dövlət yığmaq əbəsdir. Malın dövlətin xeyirdən çox zərəri var. Yığdığın dövləti qorumaq, mühafizə etmək yeni qüvvə, yeni ordu tələb edir. Ordunu yedirtmək üçün yeni dövlət tələb olunur. Beləliklə də, Bu aləm zəncir həlqələri kimi bir-birinə bağlı gedir bu dövranda.

Hammalın kürəyinə, Palanının üstünə mal yığdıqca, yükü artdıqca beli əyilər. Hökmdarım, Sultanım, məni əfv elə! Bu gün hüzurunda olmağım sənin tələbinlə, sənin ricanla idi. Gəldim. — "Bildiklərindən danış", dedin – danışdım. — "Düşündüklərindən söylə", dedin – söylədim. Sənə bir olan Allaha tapınmağı, bir olan Allahın yaratdığı xilqətə tapınmağı vəsiyyət eləyirəm. Başqa bir çarəm, Heç bir istəyim, həç bir arzum yoxdur.

Bu adi məclis deyildi. Adi söhbət də deyildi. İki böyük şəxsiyyət, iki şair, iki alim, iki düşünən insan qarşı-qarşıya əyləşmişdi. Bunlar biri, bir zaman gələcək, dünyada Qanuni Sultan Süleyman kimi, nağıllarda arzu olunan, nağıllarda tərənnüm olunan ədalətli hökmdar kimi şöhrət qazanacaqdı. İkinci isə 400 ildən ziyadə bütün Orta və Kiçik Asiya şerinə hakim kəsilən şer ilahisinə çevriləcəkdi. Söhbət elmdən gedirdi, söhbət dünyanı, təbəələri idarə etmək qanunlarından gedirdi. Beləliklə də, indiki zamandan çıxış edib, onlar gələcək haqqında düşünür, gələcəyin qanunlarını yazırdılar dillərilə söhbətlərilə, əsərlərilə. Biri türk dünyasının qanuni hökmdarı, sevilən hökmdarı, o birisi türk dünyasının şer ustadı, sevilən, təqlid olunan, hər əsərinə nəzirələr yazılan böyük Məhəmməd Füzuli idi. İki müdrikin söhbəti davam edirdi.

— Büsati səltənət məhv olsun, deyirsən. Çoxmu əzab çəkmisən o büsati-səltənətdən?

Düşündü şair, cavab vermədən əvvəl bir xəyli düşündü.

— Tək mən deyiləm, Sultanım, bəlkə mənim çəkdiyim əzab o qədər deyil. Amma ətrafıma baxanda, mülki məmləkəti görəndə, bərbad, dağıntılı, müharibələrin məhv etdiyi, talan etdiyi, insanları müflis qoyduğu, anaları oğulsuz, babaları atasız qoyan müharibələri görəndə, təkcə özümü düşünmürəm, Sultanım, təkcə özümü düşünmürəm. Millətin, millətlərin unutqanlığını, taleyini düşünürəm, Sultanım. Nə qədər xanimanlar dağılır, məhv olur, nə qədər analar gözüyaşlı qalır. Ağır günləri gördükdə mən təkcə özümü deyil, insanları düşünürəm. Insanların çəkdiyi əzabdan danışıram.

– Eşq dedikdə, Məcnun dedikdə, Fərhad dedikdə təkcə öz məhəbbətini deyil, bəşər məhəbbətini düşündüyün kimi. Eləmi?

O, çəkingənliklə cavab verdi:

— Elədir, Sultanım, doğru duymusunuz. Fitnə toxumu səpənlərdən sapınmalıdır hökmdarlar, Sultanım!

— Bilirəm, "Bəngü badə" də özün demissən: "Fitnə sülhi səlahə qıldı vida". Düz deyirsən, sülhün də, səlamətliyin də, dostluğun da, lap istəsən, nəinki məmləkətin, ailə dincliyinin də düşməni fitnədir. Aman o fitnədən, riyakarliıqdan. Riyakarlar yayır bu fitnəni. Duymaq bazən çətin olur.

— Doğrudur, çətin olur Sultanım.

Əzizə Cəfərzadə, *Əşk Sultanı* (2005)

**2.**

*Şair Xəlil Rza, 1990-cı il yanvann 26-da SSRİ Dövlət Təhlükəsizliyi əməkdaşlan tərəfindən həbs edilib Moskvaya Lefortovo həbsxanasına göndərilir. O, zindanda da mübarizəsini davam etdirir. 8 ay 13 gün müddətində 200-dən çox, şer, poema və məktubunu qələmə alır. Yuxarıdakı şer həbsxanada yazılıb.*

Uzundraz keçəl qız daim ciddi, səfərbər,
Çeçələ barmağımdan başbarmağıma qədər,
Köçürdü hər şeyimi,
Heyf, unutdu birini,
Qızına müştərini.
Yatağıma qor dolub, baxıram əllərimə.
Əllərimin dərdini kimə deyim mən, kimə?
Planetdir əllərim,
Biri sağ yarimkürə, biri sol yarımkürə.
Əllərimə baxıram,
nə gövhərdir, nə də zər,
Qələm tutan, daşyonan,
külüng vuran bu əllər.
Ayı, Marsı dolaşan,
Yupiterə yol açan
kosmik qüdrətə bənzər.
Ömründə bircə quzu,
toyuq başı kəsməyən,
Yad cibə uzanmayan,
Qismətindən küsməyən
Bu kiçik əllərimlə
gah quruda, gah suda
sal qayalar yarmışam.
Boz buluddan ildırım,
daşdan ləl çıxarmışam.
Sən də aç əllərini, ey gözü dar, qəsbkar,
neyləmisən görək sən?

Xəlil Rza Ulutürk, *Uzun Sürən Gənclik, Bakı: Azərnəşr* (1994)